

***Oqtay Rza,***
***Əməkdar müəllim***

# VƏTƏN, UĞURLARIN MÜBARƏK!

Diqqət mərkəzidir dünyanın
Azərbaycan adlı məmləkət -
Doqquz cür iqlimlə tanınmış
Dahili, ustadlı məmləkət,
Zərdüşt dövründə də möhtəşəm,
Həm ulu, həm odlu məmləkət!
Yayılır səsimiz aləmə -
Muğam, simfoniya, şeir tək;
Nəğmədir şöhrətin, qüdrətin,
Vətən, uğurların mübarək!

Min-min həvəskara "gəl" dedi
Bakı Olimpiya Ehramı;
Qocaman planet dinlədi
Dövlət rəhbərimiz İLHAMI;
Ən uzaq qitəyə bəllidir
Türkün mətinliyi, məramı.
Bal idi elə bil yaxşı söz,
Bol idi nur, işıq, gül-çiçək;
Nəğmədir şöhrətin, qüdrətin,
Vətən, uğurların mübarək!

İdman möcüzəsi yaratdıq
Əsrin on beşinci ilində;
Sədr Mehriban da danışdı,
Danışdı əvvəl öz dilində;
Və sonra xanımın nitqini
Eşitdik ingilis dilində.
...Arzunu əmələ döndərib,
Bağ salaq, ev tikək, yol çəkək!
Nəğmədir şöhrətin, qüdrətin,
Vətən, uğurların mübarək!

Firdovsi, Rəfail, İlahə...
Daim ön sırada görünsün;
Ayxanlı, Elvinli yurdumuz
Əlvan şəfəqlərə bürünsün;
Cəsarət, halallıq rəmzidir
Qızılın, gümüşün, bürüncün!
Çıxdıq sınaqlardan üzüağ,
Bütün uğurların mübarək;
Nəğmədir şöhrətin, qüdrətin,
Vətən, uğurların mübarək!

Birinci Avropa Bayramı -
Nə gözəl salnamə, zər kitab!
Keçmişi dindirən suala,
Ay dost, "Atəşgah"dan al cavab!
..."Ağa-ağ", "Dağa-dağ" söyləsin
Berlinə qayıdan o cənab.
Yaşasın xeyirxah adamlar,
Haqqın harayına hay verək!
Nəğmədir şöhrətin, qüdrətin,
Vətən, uğurların mübarək!

Bayrağın həmişə ucalsın,
Himnini ölkələr eşitsin;
Yenilik gətirən hər xəbər
Hər günü, hər ayı xoş etsin.
Gücümüz xəbisin, bədxahın
Qara niyyətini heç etsin!
Yanan, alovlanan məşəli
Şuşaya aparaq biz gərək;
Nəğmədir şohrətin, qüdrətin,
Vətən, uğurların mübarək!